Ədalət.- 2017.- 28 mart.- S. 3.

# El sənətkarları: Şairlər və aşıqlar

**(əvvəli ötən sayımızda)**

Bir gün Aşıq Abbas Molladan soruşur:

- Molla əmi, orucluqda oruc tutmasan nə olar?

- Xeyir, bala, küfr danışma başına göydən od yağar!

Aşıq qayıdır ki:

- Ay molla, axı mən tutmadım, bəs niyə mənim başıma od yağmadı, - deyə Abbas gülümsəyir.ə

***

Bir gün aşığın yaşadığı kəndə bir molla gəlir. Aşığında arvadı mollanı evinə çağırtdırıb, atasına yasin surəsi oxumağı xahiş edir.

Bu vaxt aşıq Abbas da evə dönür və görür ki, molla lap fırıldaqçı kimi tanıdığı ”dostlarındandı” və arvada qayıdır ki:

- Arvad, ta molla gəlib, gəlib, nəzirini ver yola sal. Atanın goru haqqı bu mollanın başı mənim kimi heç nədən çıxmır. Nəzirini ver getsin, axşam atana nə qədər istəsən mən quran oxuyaram.

Aşıq Abbasın hazırcavablığı çoxuna xoş gəlmirdi. Onu pərt etmək üçün fürsət axtarırmışlar. Bir gün Qırxqız dağlarına bərk yağış yağır, dolu düşür. Suvad kəndinin yanından axan çay bir ayı leşini aparıb, uzaq bir kəndə çıxarır. Oradan Aşıq Abbasa məktub yazırlar ki, Aşıq Abbas, sel kəndinizdən bir meyit gətirib, sizin adət-ənənənizi yaxşı bilmədiyimiz üçün basdıra bilmədik. Adət-ənənənizi məktubda yaz göndər dəfn edərik.

Aşıq Abbas isə belə cavab yazır:

- Öz ata-babalarınızı necə dəfn edirsinizsə onu da elə dəfn edin.

***

Bir gün dostları aşıq Abbasa bir məktub yazıb göndərir. Məktubda yazılmışdı:

- Bizə bir cöngə al, nə qara olsun, nə ağ olsun, nə sarı, nə boz nə də... Bütün rənglər sadalanır.

Aşıq Abbas da cavabında yazır:

- Almışam, hazırdır, gəl apar, amma nə duz günü, nə tək, nə də ki, çərşənbə, nə də... həftənin bütün günlərindən başqa, hansı gün gəlirsinizsə gəlin cöngə hazırdı, apara bilərsiniz...



***

Şuşanın qubernatoru Xosrov bəy qardaşı Sultan bəyə xəbər göndərir ki, yaxın günlərdə xeyli qonaqların olacaq onları yola vermək üçün 10 baş erkək göndər.

Sultan bəy Aşıq Abbasa deyir:

- Aşıq, belə hara hazırlaşmısan? Bəlkə Qarabağa tərəf gedirsən?

- Bəli, bəy, - deyə Aşıq Abbas ona cavab verir.

Sultan bəy Aşıq Abbasa 10 erkək verir ki, elə bunları da yol üstü Şuşadan gedərsən, bu erkəkləri də verərsən filan qəssaba. Bir məktub da yazıb göndərir. Aşıq Abbas heyvanların birini yolda Zarıslı kəndindən keçəndə niyyəti güc gəldiyindən ”daş-baş” edir.

Axır ki, gəlib çatır. Məktubu da həmin adama verir. Qəssab kağızı oxuyub deyir ki, erkəyin biri yoxdur. Abbas cavabında deyir ki, düzdür. Qəssab deyir, səhvdir biri yoxdur. Aşıq Abbas deyir düzdür. Axırda naəlac qalan qəssab əlacsız qalıb 10 adam çağırır ki, hərəsi bir erkək tutsun, görək onuna da erkək çatacaqmı? Hərəsi bir baş heyvan tuturlar. Biri isə əliboş qalır. Qəssab deyir:

- Ay Aşıq Abbas, bax bu on nəfərin birinə bir erkək çatmadı.

Aşıq Abbas gülə-gülə:

- Bu fərasətsiz oğlunun əli həmişə boşda qalır. Fərasəti olsaydı o da birini tutardı.

***

Bir dəfə Sultan bəyin xeyli qonağa gəlir. Yeyib-içməyin şirin məqamında söhbət yaxşıdan, pisdən düşür. Hərə bir əhvalat danışır. Sultan bəy isə, birdən qayıdır ki,

- Kimsə mənə, hər şeyin pisindən misal gətirsə ona xələt bağışlayacam. İşdi birdən deyə bilməsə şallaqla cəzalandıracağam ha...

Məslisə sükut düşür. Birdən Aşıq Abbas dillənir.

- Bəy sağ olsun, mən cavab verərəm, - deyir.

Bəy yenə sualın məqamlarını təkrar edir.

Aşığa deyir:

-Aşıq sözümüz, sözdü ha, suala cavab verə bilməsən şallaq yeyərsən ha...

Aşıq yenə ürəkli-ürəkli deyir:

- Mən hazıram.

- Onda de görək sualın cavabını.

Uzun müddət Sultan bəyin yanında xidmət etdiyinə görə, çox müşahidələr apardığımdan Aşıq Abbas bildirdi ki, Sultan bəyin nələrdən xoşu gəlir, nələrdən isə xoşu gəlmirdi. Odur ki, qayıdır ki:

- Bəy sağ olsun, bazar günü, bir tənbəl nökər-naib, Yevlaxda eşşəyin belində ərik yeyirdi...

Sultan bəy fikirləşdi və birdən qayıtdı ki:

- Əhsən Aşıq Abbasa, o mənim sualıma düzgün cavab verdiyinə görə o boz atı ona hədiyyə verirəm... Çünki mənim bazar günündən xoşum gəlmədiyi üçün bütün günü yatıram. Tənbəl nökər-naibi də görməyə gözüm yoxdur. Sən bir dəfə də işi yarıtmadığına görə yaxşı kötək yedin. Ona görə də tənbəldən xoşum gəlmir. Yevlaxda hər tərəf bataqlıq olduğu üçün ətrafdan pis iy gəlir, heyvanlardan da eşşəyin səsində, meyvələrdən də ərikdən xoşum gəlmir. Bir dəfə isti havada ərik yedim qarnım yaman ağrıdı. Ona görə də Aşığa hədiyyə düşür.




***

Bir dəfə Aşıq Abbas bir taciri aldadıb pul alır ki, sənə filan şeyi gətirəcəyəm. Tacir də çox xəsis imiş, onu özü ilə gətirib evinin yolunu ona nişan verir ki, bax buradan gəl, buradan get, buradan belə dönərsən.

Aşıq Abbas qayıdır ki,

- Kişi, sən tam arxayın ola bilərsən, mənə Aşıq Abbas deyərlər, mənimki, birdəfəlikdir. Bir dəfə gəldim gördüm, bəsimdir. Nə çatar, nə də batar...

Təəssüf ki, belə görkəmli yaddan çıxan qalan sənətkarlarının nümunələri çoxdur, bu günə qədər toplanıb, təqdim olunmayan çox nümunələri vardır, onları tapıb araşdırıb oxuculara təqdim etmək lazımdır.

Şifahi ədəbiyyatımızın, bütövlükdə folklorumuzun və Azərbaycan söz sənətinin bütün zamanlarda daşıyıcıları, yaradanları, təbliğ edənləri təbii ki, daha çox bel şairləri və aşıqlarımız olubdu. Bu mənada indinin özündə də daha çox sözü, yaradıcılığı dillərdə gəzib-dolaşan el şairlərini, həmçinin aşıqlarımızı arayıb axtarmaq, onların yaradıcılığını öyrənmək və bunu da mətbuat səhifəsinə çıxarmaq öncə ədəbiyyatşünasların, yəni bu sahənin adamlarının, eləcə də mətbuatın ümdə işlərindən biridir.

**Təbii ki, biz də həyata keçirdiyimz layihənin tələblərinə uyğun olaraq ardıcıl şəkildə mədəniyyətimizin, ədəbiyyatımızın, tariximizin və bütövlükdə Azərbaycanımızın mənəvi dünyasının öyrənilib təbliğ edilməsi istiqamətində gücümüz, imkanımız çatan səviyyədə iştirak etməkdə israrlıyıq. Düşünür ki, bundan sonra da el şairlərinin, həmçinin tanınan və tanınmayan aşıqlarımızın yaradıcılığı barəsində müəyyən bilgiləri ”Ədalət”in oxucularının diqqətinə təqdim edək.**

**Nemət BƏXTİYAR**
**AYB-nin üzvü, Media ”Qızıl Qələm” mükafatı laureatı, Laçın rayonu**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ